*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 30 dekabr 2017-ci il № 99 (2216) Qiyməti 25 qəpik


## Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı münasibətilə Azərbaycan Ordusunun şəxsi heyətinə

## Azərbaycan Respublikası Müdafiə nazirinin təbriki

Cənab zabitlər, yoldaş gizirlər, miçmanlar, kursantlar, çavuşlar, əsgərlər və matroslar!

Sizi 31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı münasibətilə təbrik edir, hər birinizə ən xoş arzularımı çatdırıram.

Ulu öndər Heydər Əliyev tərəfindən təməli qoyulan Dünya Azərbaycanlılarının həmrəyliyi getdikcə daha böyük məna və əhəmiyyət kəsb edir. Dövlət quruculuğunun bütün sahələrində əldə olunan mühüm nailiyyətlər Azərbaycanın dünya birliyində layiqli yer tutmasına, bütün dünya azərbaycanlılarının milli hüquqlarının, beynəlxalq haqlarının həyata keçirilməsinə geniş imkanlar açır.

2017-ci il xalqımızın, ordumuzun şəxsi heyətinin yaddaşında əlamətdar hadisələrlə qalacaq. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə cari ildə ölkəmizin sosial-iqtisadi inkişaf dinamikası artmış, ordu quruculuğunda görülən işlər öz müsbət nəticəsini vermiş, mühüm işlər görülməklə həyata keçirilən irimiqyaslı islahatlar ordumuzun döyüş və mənəvi-psixoloji hazırlığının yüksəlməsinə səbəb olmuşdur.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanının daim diqqət və qayğısı sayəsində orduda şəxsi heyətin sosial-məişət problemləri həll edilir, hərbi hissələrin maddi-texniki bazası daha da möhkəmlənir. Yüksək ixtisaslı, peşəkar hərbçi kadrların hazırlanması prosesi ordu quruculuğunun mühüm tərkib hissəsi kimi uğurla davam etdirilir. Yeni hərbi şəhərciklər və hərbi hissələr istifadəyə verilir, müxtəlif qoşun növlərində müasir təlim mərkəzləri yaradılıb ki, bunlar da dövlətin orduya diqqəti və qayğısının parlaq təzahürüdür.

Ordumuzun hərbi qüdrətinin artırılması istiqamətində həyata keçirilən məqsədyönlü islahatlar hərbi qulluqçularımızın döyüş əzmini, qələbə ruhunu daha da artırır.

Ötən ilin aprelində cəbhə xəttində düşmənin hərbi təxribatlarının qarşısının alınmasında hərbçilərimizin göstərdiyi şücaət Azərbaycan Ordusunun torpaqlarımızı işğaldan tamamilə azad etmək əzmini bir daha təsdiqləməklə regionda ən güclü ordu olduğunu sübut etdi. Həmin günlərdə müxtəlif ölkələrdə yaşayan soydaşlarımız da bu qələbədən qürur duyduqlarını, hərbçilərimizə dəstək olduqlarını nümayiş etdirdilər.

Azərbaycan Ordusunda keçirilən taktiki təlimlər ordunun döyüş qabiliyyətini daha da artırır, gücləndirir. Ordumuz Ali Baş Komandanın istənilən əmrini yerinə yetirməyə hazırdır.

Bayramlar ərəfəsində şəhidlərimizin unudulmaz xatirəsini bir daha hörmət və ehtiramla yad edir, onların valideynlərini, ailə üzvlərini, Vətən uğrunda sağlamlığını itirən döyüşçülərimizi, veteranları, hazırda xidmətdə olan şəxsi heyəti bir daha ürəkdən təbrik edir, möhkəm cansağlığı, uzun ömür, ailə səadəti, xidmətdə uğurlar arzulayıram.

Bayramınız mübarək olsun!

**General-polkovnik**
**Zakir HƏSƏNOV,**
**Azərbaycan Respublikasının**
**Müdafiə naziri**

## Ali Baş Komandan İlham ƏLİYEV:

*Bu gün Azərbaycan Ordusu öz üstünlüyünü göstərir. Bizdə olan vətənpərvərlik ruhu, döyüş qabiliyyəti, texniki imkanlar, əlbəttə ki, üstünlüyümüzü şərtləndirir. Azərbaycan Ordusunun arsenalında mövcud olan texnika, silah-sursat Dağlıq Qarabağda və Ermənistanda istənilən hədəfi yüksək dəqiqliklə məhv edə bilər.*

*Ön xətdən reportaj*

# Torpaqlarımız inamla qorunur



...Zabit dəqiqliyi ilə vaxtında qatara çatıram. Yol yoldaşım olan Əli kişi ilə qısa söhbətimi sizinlə bölüşmək istəyirəm. O, düşmənlə təmas xəttinə yaxın kənddə yaşayır.

- Allah sizləri qorusun oğul, yolunuz haradır?

- Sizin kəndə, əmi, düşmənə sipər olan əsgərlərin görüşünə.

- Oğul, mən uzun illərdir o kənddə yaşayıram. Əvvəllər düşmənin əlindən dağlara getmək olmurdu. Nə səfalı havasında dincələ, nə də mal-qaramızı otara bilirdik. İndi isə tam təhlükəsiz şəraitdə işlərimizi görə bilirik. Yay olan kimi nəvələrimi də götürüb dağlara qalxır, mer-meyvə, gül-çiçək toplayırıq. Çobanlarımız da rahatlıqla mal-qaranı otarırlar. Kəndimizin hər sakini ölkə başçımıza, Müdafiə nazirimizə və onların rəhbərliyi altında, hərbi gücünü artıran ordumuza minnətdardır.

...Düşmənlə təmas bölgəsində yerləşən kəndi boydan-boya əhatə edən dağların zirvəsinə qalxırıq. Bu yüksəklikləri göz bəbəyi kimi qoruyan dağ vüqarlı Vətən oğullarının görüşünə gedirik... Budur, hərbi bölmədə baş leytenant Rəşad Bağırzadə döyüş növbəsini dəyişəcək əsgərlərə son tapşırıqlarını verir. Onun Cəmşid Naxçıvanski adına Hərbi Liseyin və Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin məzunu olduğunu öyrənirəm. Rəşad seçdiyi peşə ilə fərəhləndiyini bildirir:

- Hərbi liseyə qəbul olanda sevincimin həddi-hüdudu yox idi. Qəbul imtahanlarına çox ciddi hazırlaşırdım, gecəmi gündüzümə qatıb oxuyurdum. Kursant olduqda özümə söz verdim ki, təhsilimi uğurla başa vurub, Azərbaycan Ordusuna layiqli zabit olacam. Bizə müqəddəs vəzifə tapşırılıb. Yağı düşmən qarşısında möhkəm, keçilməz səd qurmuşuq. İmkan vermərik ki, dinc əhalimizi düşmən narahat etsin. Bax, seçdiyim peşənin ən şərəfli cəhəti də elə burasındadır. Vətən torpağına keşik çəkirsən və səni özünə övlad bilən bütün xalqı, milləti qoruyursan. Bu hissin verdiyi mənəvi güc bütün çətinlikləri qabaqlayır.

**(Ardı 3-cü səhifədə)**

# Azərbaycan ilə Rumıniya arasında hərbi əməkdaşlıq məsələləri müzakirə olunub

*Dekabrın 29-da Müdafiə naziri general-polkovnik Zakir Həsənov Əfqanıstandan Azərbaycan üzərindən tranzitlə öz ölkəsinə qayıdan Rumıniyanın Milli Müdafiə naziri cənab Mihai-Viorel Fifor ilə görüşüb.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, işçi nahar zamanı keçirilən görüşdə regional təhlükəsizlik məsələləri barədə fikir mübadiləsi aparılıb, ölkələrimiz arasında hərbi sahədə əməkdaşlığın hazırkı vəziyyəti və perspektivləri, eləcə də qarşılıqlı maraq kəsb edən bir sıra digər məsələlər müzakirə edilib.



# Müdafiə naziri cəbhəboyu zonada tikilməkdə olan bir sıra hərbi obyektlərə baxış keçirib



Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin göstərişinə əsasən, hərbi hissələrdə tikinti-inşaat işləri davam etdirilir.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Müdafiə Nazirliyinin rəhbərliyi cəbhəboyu zonada tikilməkdə olan bir sıra hərbi obyektlərdə olub.

Tikintilər aparılan ərazilərə baxış keçirən Müdafiə naziri general-polkovnik Zakir Həsənov inşaat işlərinin gedişatını yoxlayıb və müvafiq tapşırıqlar verib.

# Müdafiə naziri bayramlar münasibətilə hərbi tibb müəssisələrində olub



Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırığına əsasən, cəbhəboyu zonada səfərdə olarkən mobil səhra hospitalın kollektivi ilə görüşən general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti dekabrın 28-də Silahlı Qüvvələrin Baş Klinik Hospitalında da olub.

Əvvəlcə ümummilli lider Heydər Əliyevin hospitalın ərazisində ucaldılan abidəsi önünə gül dəstələri qoyulub və ehtiram ifadə edilib.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Müdafiə naziri hospitalda müalicə olunan hərbi qulluqçuların görüşərək onların səhhəti ilə maraqlanıb və tezliklə sağalaraq xidmət yerlərinə qayıtmalarını arzu edib.

Tibb heyəti ilə görüşən general-polkovnik Zakir Həsənov onlara Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin təbriklərini çatdırıb.

Sonra hərbi qulluqçulara dövlətimizin başçısı adından bayram sovqatları təqdim olunub.



# Müdafiə naziri ön xətt bölmələrinin döyüşə hazırlıq vəziyyətini yoxlayıb

*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırığına əsasən, general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti cəbhəboyu zonada yerləşən bölmələrdə olub.*



Məruzələri dinlədikdən sonra Müdafiə naziri üzbəüz düşmən mövqelərini müşahidə edib, ön xətdəki vəziyyətlə yerində tanış olub.

Daha sonra hərbi hissələrdən birinin yeni inşa edilən dayaq məntəqəsinin, digər hərbi hissədə isə hərbi texnika üçün nəzərdə tutulmuş avtoparkın açılışını edən nazir, hərbi texnikanın döyüşə hazırlıq səviyyəsini yoxlayıb.

* * *

Cəbhəboyu zonada səfərdə olan Müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti tank bölmələrində olublar.

Zirehli texnikaların döyüş qabiliyyəti və tətbiqi imkanlarını yoxlayan nazirə məruzə olunub ki, silahlanmada olan bütün hərbi texnika döyüşə hazır vəziyyətdədir.

Müdafiə naziri zirehli texnikalarda atış və sürücülük çalışmalarının öyrənilməsi üçün nəzərdə tutulmuş trenajor kompleksində təlim-məşq qurğularına baxış keçirib və mərkəzin tədris imkanlarını yüksək qiymətləndirib.

Bildirilib ki, təlim mərkəzində trenajorlar vasitəsilə zirehli texnikaların idarə olunması və döyüş tətbiqi üzrə praktiki vərdişlər təkmilləşdirilir.



Hərbi qulluqçularla görüşərək onların qayğıları, sosial-məişət şəraiti ilə maraqlanan general-polkovnik Zakir Həsənov Ali Baş Komandanın bayram təbriklərini şəxsi heyətə çatdırıb, xidmətdə fərqlənənləri dövlət başçısı adından mükafatlandırıb.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti, fotolar Natiq İSAYEVİNDİR**

# Milli Qəhrəman Çingiz Qurbanovun şəhidlik zirvəsinə ucalmasının ildönümüdür



*Dekabrın 29-u Azərbaycanın Milli Qəhrəmanı Çingiz Qurbanovun şəhidlik zirvəsinə ucalmasının ildönümüdür.*

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, bu münasibətlə Qusar rayonunda keçirilən anım mərasimində Müdafiə Nazirliyinin, rayon icra hakimiyyətinin rəsmiləri, Milli Qəhrəmanın ailə üzvləri, ictimaiyyət nümayəndələri iştirak ediblər.

Mərasim iştirakçıları əvvəlcə Şəhidlər xiyabanında Milli Qəhrəmanın məzarını ziyarət ediblər.

Müdafiə Nazirliyinin Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin rəisi general-mayor Rasim Əliyev, Əməkdar İncəsənət Xadimi, Prezidentin fərdi təqaüdçüsü Abdulla Qurbani, Qusar rayon İcra Hakimiyyətinin başçısı Şair Alxasov çıxışlarında bildiriblər ki, ölkəmizdə Vətən uğrunda şəhid olan hər bir hərbi qulluqçunun adı əziz tutulur, onların xatirəsi əbədiləşdirilir, ailəsi isə dövlət səviyyəsində diqqət və qayğı ilə əhatə olunur. Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev bu məsələyə xüsusi önəm verir.

Milli Qəhrəmanın qısa, lakin şərəfli ömür yoluna nəzər salan natiqlər qeyd ediblər ki, Azərbaycan Ordusunun əsgəri Çingiz Salman oğlu Qurbanov 2016-cı il dekabrın 29-da Ermənistan silahlı qüvvələrinin kəşfiyyat qrupunun təxribat-pozuculuq fəaliyyətinin qarşısını alarkən baş vermiş döyüşdə şəhid olub. Prezident İlham Əliyevin tapşırığına əsasən, aidiyyəti dövlət qurumları tərəfindən beynəlxalq təşkilatlarla birgə görülmüş tədbirlər nəticəsində onun nəşi fevralın 5-də qarşı tərəfdən alınıb. Şəhid Çingiz Qurbanov fevralın 6-da doğulduğu Qusar rayonunda dəfn edilib.




Prezident İlham Əliyevin Sərəncamına əsasən, Azərbaycanın ərazi bütövlüyünün qorunub saxlanılmasında xüsusi xidmətlərinə və döyüş tapşırığını yerinə yetirərkən göstərdiyi şəxsi igidliyə görə əsgər Çingiz Qurbanova ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adı verilib.

Azərbaycanın Milli Qəhrəmanı, şəhid Çingiz Qurbanovun atası Salman Qurbanov qusarlıların işğal altındakı torpaqlarımızı azad etmək üçün Ali Baş Komandanın əmrinə hər an hazır olduqlarını bildirib. Diqqətə çatdırıb ki, Çingiz kimi Vətən oğulları müstəqil dövlətimizin və dövlətçiliyimizin keşiyində hər zaman ayıq-sayıq dayanıblar.



Sonra tədbir iştirakçıları Ç.Qurbanovun adını daşıyan küçədə qoyulan barelyefin önünə tər güllər düzüb, şəhidlərimizin xatirəsini ehtiramla anıblar.

Milli Qəhrəman Çingiz Qurbanovun şəhidlik zirvəsinə ucalmasının ildönümü münasibətilə ehsan süfrəsi də açılıb.

# Torpaqlarımız inamla qorunur

**(Əvvəli 1-ci səhifədə)**

...Zabitin dediyi sözlərin qətiyyəti, məğrurluğu ürəyindəki sonsuz Vətən sevgisindən xəbər verir. Əminliklə deyə bilərəm ki, bu sözlər ordumuzun istənilən bölməsində xidmət edən vətənpərvər oğulların hər birinin ürəyindən keçənlərdir. Söhbətləşdiyim hər zabit, gizir, əsgər Azərbaycan Ordusunda xidmət etməkdən qürur duyduğunu vurğulayır. Şəxsi heyətin belə yüksək mənəvi-psixoloji durumu bir daha əmin edir ki, düşmən sülhlə barışmasa, hərb yolu ilə torpaqlarımızı azad etməyə qadir ordumuz var.

...Leytenant Qabil Hüseynlini tanıyıram. O da Cəmşid Naxçıvanski adına Hərbi Liseyin və Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin məzunudur. Gənc zabit məni bölmənin ərazisi və şəraiti ilə tanış edir. Yemək otağı, hamamxana və yataqxanalarını göstərir. Bütün otaqlarda isti sobalar yanır. Səliqə-sahman və təmizlik də qaydasındadır. Bir sözlə, bölmənin kilometrlərlə yüksəklikdə yerləşməsinə baxmayaraq məişət şəraitinin yaxşı olduğunu görürəm. Əslən Lənkərandan olan leytenant Q.Hüseynli "Hər zabit kimi mənim də ən böyük arzum Qarabağımızı düşməndən azad etməkdir", - deyir. "Bu arzumuza çatmağa çox az qalıb. Həm döyüş, həm də mənəvi-psixoloji hazırlığımızın yüksək olması bunu deməyə əsas verir. Əsgərlərin də hər biri üzərinə düşən vəzifələrin öhdəsindən bacarıqla gəlir. Hiss edirsən ki, onlar ailədə, təhsil aldıqları məktəblərdə vətənpərvərlik ruhunda böyüyüblər. Əsgərlərlə mütəmadi fərdi söhbətlər aparır, qayğıları, ailələri ilə maraqlanırıq, vaxtı-vaxtında məzuniyyətə göndəririk".

Zabitin dediyi kimi, şəxsi heyət arasında ailə mühitinin, komandir-əsgər arasında sağlam münasibətlərin qurulduğunu müşahidə edirəm... Onunla söhbətimi yekunlaşdırıb, bu yüksəkliklərdə düşmənə göz dağı olan əsgərlərin yanına gedirəm. Budur, səngərdən döyüş növbəsini təhvil verən əsgərlər gəlir. Komandirlərinin nəzarəti altında silahları boşaldıb, saxlanca təhvil verirlər. İlk həmsöhbətim əsgər Nizami Qurbanovdur, hərbi xidmətə Masallı rayonundan çağırılıb.

- Neçə aydır xidmətdəyəm, - əsgər Qurbanov deyir - Heç bir çətinlik çəkmədən xidmətimi uğurla davam etdirirəm. Mənə təhkim olunan pulemyotun bütün xüsusiyyətlərini dərindən öyrənmişəm. Ən əsası sərrast nişan almağı bacarıram. Ali Baş Komandanımızın döyüş əmrinə hər an hazıram. Pulemyotumla torpaqlarımızdan çıxmaq istəməyən düşməni bir anda məhv edərəm. Hərbi xidmət, həmçinin əsl kişilik məktəbidir. Dözümlü, möhkəm, cəsur, mərd olmağı, dostluğa sadiq qalmağı öyrənirsən.

Hərbi xidmətə Qaradağ rayonundan çağırılan əsgər Məhəmməd Hacıyev də söhbətimizə qoşularaq deyir:

- Əsgər olmaq, torpaqlarımızı qorumaq qürurvericidir. Bu vəzifənin məsuliyyətini yaxşı dərk edir, ordumuza layiqli əsgər olmaq üçün nümunəvi xidmət etməyə çalışıram. Andiçmə günü xidmətimdə ən yadda qalan günümdür. Əsgər yoldaşlarımla çiyin-çiyinə bir ağızdan hərbi andı qəbul etdiyim, valideynlərimin qürurlu baxışları altında təntənəli marşla keçdiyim o gün yaddaşımdan heç vaxt silinməz. Uşaqlıqdan sevgi bəslədiyim hərbi formanı geyinib əsgər olmağın sevincini, həyəcanını yaşamışdım. Bir gənc üçün bundan sevincli gün ola bilməz.

...Əsgər danışdıqca qürurlanıram. Xalqını, dövlətini, ordusunu sevən vətənpərvər gənclərin xidmət etdiyi ordu ən güclü ordudur fikrinə bir daha əmin olursan...

- Bu səngərlərdə şəhidlərimizin xatirəsi var. Biz onların qəhrəmanlıqları ilə fəxr edirik, - deyən əsgər Çingiz Saatovla söhbətimiz davam edir.

- Torpaqlarımızın azadlığı uğrunda canlarından keçən həmvətənlərimizin qəhrəmanlıqlarını eşidə-eşidə böyümüşük. Onların mərdliyini, igidliyini ömrümüzə örnək, nümunə bilmişik. İndi fərəhlənirəm ki, Mübarizin, Fəridin, Samidin, Turalın, Raqufun və digər qəhrəmanlarımızın əmanət qoyub getdiyi torpaqların keşiyində dayanmışam. Döyüş əmri olsa, mən də onlar kimi şücaət göstərməyə hazıram.

...Əsgərin dedikləri hər bir azərbaycanlının ürəyində illərdir alovlanan arzulardır. Bu arzuya belə mərd oğulların sayəsində çatacağıq. İgidlərdən daha birini - iki ilə yaxındır xidmət edən müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Ucal Əliyevi tanıyıram. Ağstafa rayonunda doğulub boya-başa çatıb. Əsgəri xidmətini başa vurduqdan sonra könüllü olaraq ordu sıralarında qalıb xidmətini davam etdirib.

- Əsgərliyin son günlərində ürəyimdə hərbçi olmaq istəyi yarandı. Ordu sıralarında qalmaq məqsədimi yuxarı komandanlığa bildirdim. Təlim kursunu keçdikdən sonra ön xətdəki bölmələrin birinə təyin olundum və xidmətimi hazırda uğurla davam etdirirəm. Gördüyünüz kimi, hər şəraitimiz qaydasındadır. Təminatımız, silah-texnikamız yüksək səviyyədədir. Üzərimizə bircə vəzifə düşür - torpaqlarımızın keşiyində ayıq-sayıq dayanmaq, layiqli xidmət etmək. Bu vəzifənin öhdəsindən uğurla gəlmək üçün əlimizdən gələni edirik.

... Söhbətləşdiyim digər əsgərlər Emin Qədimov və Tehran Nəcəfov da düşmən qarşısında inamla dayandıqlarını vurğulayırlar. "Biz düşməndən qorxmuruq, onlardan qat-qat güclüyük. Ali Baş Komandanımız əmr verən kimi qısa vaxtda onları məhv edərik, daş üstə daş qoymarıq."

... Hava yavaş-yavaş qaralır. Günəş astaca dağların arxasına çəkilir. Artıq getməyin vaxtıdır. Hər biri düşmənə keçilməz qala olan igid oğulların əlini sıxıb, xidmətlərində uğurlar arzulayıram. Ərşə çəkilən günəşin doğuşunu Qarabağımızda qarşılayacağımız sabahlarda görüşmək arzusu ilə...

**Leytenant
Mahmud MÖHBALIYEV,
"Azərbaycan Ordusu"**

AZƏRBAYCAN ORDUSU

# Müsabiqənin qalibləri mükafatlandırıldı

*Dekabrın 27-də Müdafiə Nazirliyinin Şəxsi Heyət Baş İdarəsində "Gücümüz birlikdədir" mövzusunda rəsm müsabiqəsinin qalibləri ilə görüş keçirildi.*

Tədbirdə Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin rəisi general-mayor Rasim Əliyev çıxış edərək qalibləri salamladı və bildirdi ki, belə tədbirlərin keçirilməsində məqsəd Silahlı Qüvvələrdə mənəvi-psixoloji hazırlıq işinin əsas tərkib hissəsi sayılan mədəni-asudə işi səmərəli təşkil etmək, şəxsi heyətin milli-mənəvi dəyərlərimiz ruhunda tərbiyəsinə töhfə verməkdir. "Ordu quruculuğunun əsasını təşkil edən mənəvi-psixoloji təminat Silahlı Qüvvələrin döyüşə hazır olmasının vacib amillərindən biridir. Ordu silahlanmasına görə güclü ola bilər, amma şəxsi heyətin mənəvi-psixoloji hazırlığı yetərincə deyilsə, onda qalibiyyət qazanmaq mümkün deyil. Əsas məqsədimiz ordunun döyüş qabiliyyətini artırıb, torpaqlarımızı işğaldan azad etməkdir. Yüksək nizam-intizam, təşkilatçılıq, şəxsi igidlik, qəhrəmanlıq nümunələri bu gün Azərbaycan Ordusunda yetərli səviyyədədir və əminliklə demək istərdim ki, biz düşmən üzərində Qələbəyə tam hazırıq."





Müdafiə Nazirliyi Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin sədri Abiyat Ağadadaşova çıxışında qeyd etdi ki, belə tədbirlərdə iştirak etmək mənə xoş təəssürat bağışlayır. "Bütün rəsmlər yaradıcı şəkildə yaradılıb. Hər insan rəsm çəkmir. Gərək mövzu üzərində düşünməyi bacarasan. Bu zaman öz hisslərini kağız üzərində əks etdirmək asan olur. Yaradıcı peşə sahibi olmaq üçün mütləq istedada malik olmalısan. Mən də qaliblərimizi təbrik edir, onlara xidmətlərində uğurlar arzulayıram".

Sonra mükafatlandırılma ilə bağlı əmr oxundu və qaliblərə Şəxsi Heyət Baş İdarəsinin rəisi adından fəxri fərmanlar, Müdafiə Nazirliyi Birləşmiş Həmkarlar İttifaqı Konfederasiyası tərəfindən isə mükafatlar təqdim olundu.

Xatırladaq ki, rəsm müsabiqəsi üç mərhələdə keçirilib. Müsabiqədə bir çox mövzuda rəsmlər nümayiş etdirilib. Münsiflər heyəti tərəfindən üçüncü mərhələnin yekununda ən yaxşı rəsm nümunələri fərqləndirilib. Birinci yerə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin kursantı Həmid Behbudlu, ikinci yerə Hərbi Dəniz Qüvvələrinin matrosu Seymur Bayramlı və üçüncü yerə müxtəlif bölgədə yerləşən iki hərbi hissənin əsgərləri Elnur Şirinov və Ramazan Məmmədov layiq görüldülər.

**Baş leytenant**
**Məhəmməd NƏSİRLİ,**
**"Azərbaycan Ordusu"**

# Azərbaycanın hərbi tibb mütəxəssisləri iranlı həmkarları ilə görüşüb

*Azərbaycan ilə İran arasında hərbi sahədə ikitərəfli əməkdaşlıq planına uyğun olaraq, Müdafiə Nazirliyinin bir qrup tibb xidməti zabiti İran İslam Respublikasının Tehran şəhərində olub.*

Səfər çərçivəsində Müdafiə Nazirliyinin Tibb Baş İdarəsinin rəisi general-mayor Natiq Əliyev İran Silahlı Qüvvələrinin tibb xidməti rəisi briqada generalı Həsən Ərağizadə ilə əməkdaşlığın inkişaf etdirilməsi istiqamətində müzakirələr aparıb.



İran Silahlı Qüvvələrinin tibb xidmətinin imkanlarının öyrənilməsi məqsədilə Azərbaycan nümayəndə heyəti İslam İnqilabı Keşikçiləri Korpusunun Bəqiyətullah və Cəmaran hospitallarını, Müdafiə və Silahlı Qüvvələrə Dəstək Nazirliyinin Besət hospitalını, İran Ordusunun Tibb Elmləri Universitetini ziyarət edib, eləcə də müdafiə qabiliyyətləri sərgisinə baxış keçiriblər.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**

# Hər bir azərbaycanlı üçün birlik, həmrəylik günü

Xalqımız, eləcə də dünyanın müxtəlif ölkələrində məskunlaşmış soydaşlarımız, hər il dekabrın 31-ni Dünya Azərbaycanlılarının Həmrəylik Gününü böyük həvəs və coşqu ilə qeyd edir. Bu bayram ildən-ilə daha geniş vüsət alır, daha geniş şəkildə keçirilir. Azərbaycanı özünə tarixi Vətən bilən hər bir şəxsin həmrəylik nümayiş etdirməsi qürurvericidir.

Dünya azərbaycanlılarının həmrəyliyi, onların təşkilatlanması prosesini daim diqqət mərkəzində saxlayan Ümummilli Liderimiz, dahi şəxsiyyət Heydər Əliyevin uzaqgörənliyini, xalqı öz ətrafında birləşdirməyə qadir olduğunu nümayiş etdirdi.

Ümummilli Liderimiz 31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəylik Günü münasibətilə xarici ölkələrdə yaşayan soydaşlarımıza müraciətlərindən birində deyirdi: "Dünya Azərbaycanlılarının Həmrəylik Gününün dövlət bayramı kimi qeyd edilməsi xalqımızın milli azadlıq mübarizəsinin məntiqi nəticəsi olaraq artıq xoş ənənəyə çevrilmişdir. Qədim və zəngin tarixə malik olan Azərbaycan xalqının dirçəlişini, tərəqqisini və milli birliyini əks etdirən, onu müstəqil dövlətçilik uğrunda müqəddəs və məsuliyyətli mübarizəyə səfərbər edən həmrəylik günü hər bir azərbaycanlı üçün inam və ümid anıdır. Hal-hazırda dünyanın müxtəlif ölkələrində milyonlarla soydaşımız yaşayır, işləyir, fəaliyyət göstərir. Buna baxmayaraq, onların milli-mənəvi varlığını yaşadan yeganə bir dövlət var. Bu, müstəqil, suveren Azərbaycan Respublikasıdır. Dünya azərbaycanlılarının birliyi və həmrəyliyi ideyasının əsasını da məhz Azərbaycan dövlətçiliyinə, xalqımızın dilinə, dininə, milli-mənəvi varlığına və ümumbəşəri dəyərlərə hörmət, onların daim qorunmasına, yaşamasına qayğı təşkil edir".

31 dekabr tarixinin bütün dünya azərbaycanlılarının birlik, həmrəylik günü kimi hər il böyük təntənə və qürur hissi ilə qeyd olunduğunu bildirən Ulu Öndərin siyasi kursunun layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev demişdir: "Dünya azərbaycanlılarının həmrəyliyi və birliyi üçün Ulu Öndər çox böyük səylər göstərmişdir. Hələ 1991-ci ildə Naxçıvanda onun təşəbbüsü ilə 31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəylik Günü" kimi elan edilmişdir.

Dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımızın müstəqil Azərbaycan Respublikası ilə əlaqələrinin daha da möhkəmləndirilməsi, onların birliyinin və həmrəyliyinin təmin olunması məqsədilə 2001-ci il mayın 23-də Heydər Əliyevin imzaladığı sərəncamla 2001-ci il noyabrın 9-10-da Bakıda Dünya Azərbaycanlılarının I qurultayı keçirildi. Qurultayda dərin məzmunlu nitq söyləyən ulu öndər Heydər Əliyev dünya azərbaycanlılarının milli birliyinin və həmrəyliyinin təmin edilməsi, Azərbaycan dövləti və dünya azərbaycanlılarının əlaqələrinin möhkəmləndirilməsi, qarşıya çıxan problemlərin həllində səylərin birləşdirilməsi zərurəti, o cümlədən, ana dilinin, milli-mənəvi dəyərlərin qorunub saxlanılması, inkişaf etdirilməsi haqqında fikirlərini bildirdi.

"Hər bir insan üçün onun milli mənsubiyyəti onun qürur mənbəyidir. Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!" - müdrik rəhbərin bu kəlamları hər bir həmvətənimiz üçün milli qürur rəmzinə çevrilmişdir.

Dahi şəxsiyyətin dünya azərbaycanlılarının həmrəyliyinin, birliyinin təmin edilməsi ilə bağlı ideyaları bu gün də aktualdır.

Dövlət başçısının imzaladığı sərəncamlarla Bakı şəhərində 2006-cı il martın 16-da Dünya Azərbaycanlılarının II, 2011-ci il iyulun 5-6-da III, 2016-cı il iyunun 3-4-də isə IV qurultayının keçirilməsi diaspor quruculuğu işinə əsaslı töhfə vermişdir. Bu qurultaylar dünya azərbaycanlılarının birlik və həmrəyliyinin təntənəsi baxımından mühüm tarixi əhəmiyyət kəsb edir. Eyni zamanda qurultaylar bir daha dünya azərbaycanlılarının Prezident İlham Əliyevin, deməli, Azərbaycan dövlətinin ətrafında sıx birləşdiyini təsdiqlədi.

**Tural ƏLİBABAYEV,**
**Bakı şəhəri**

# Muzeydə bayram tədbiri



Dünya Azərbaycanlılarının Həmrəylik Gününün əsası 1989-cu ilin dekabrında Naxçıvanda SSRİ-İran sərhədlərinin dağılması zamanı qoyulub. 1991-ci il dekabrın 16-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Heydər Əliyev dünya azərbaycanlılarının birliyini yaratmağın əhəmiyyətini nəzərə alaraq, dekabrın 31-ni Dünya Azərbaycanlılarının Həmrəylik Günü elan edib. O vaxtdan bütün azərbaycanlılar bu əlamətdar günü bayram edir.

Dekabrın 27-də Hərb Tarixi Muzeyində Azərbaycan xalqının birlik, bütövlük duyğularının ifadəsindən doğan və dünyada yaşayan soydaşlarımızın Vətənə və azərbaycançılıq məfkurəsinə sədaqətini, öz keçmişinə və milli-mənəvi dəyərlərinə ehtiramını əks etdirən 31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəylik Gününə həsr olunmuş tədbirdə Müdafiə Nazirliyi, xüsusi təyinatlı təhsil müəssisələrinin və ictimaiyyətin nümayəndələri iştirak edirdilər.

Əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin və torpaqlarımızın suverenliyi, ərazi bütövlüyü uğrunda şəhid olan soydaşlarımızın xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.

Muzeyin rəisi ehtiyatda olan polkovnik Əzizağa Qənizadə çıxışında bildirib ki, ulu öndər Heydər Əliyevin azərbaycançılıq fəlsəfəsini, azərbaycançılıq ideyasını yaşadanlar bu birliyə, bu həmrəyliyə öz töhvələrini verirlər. "Dahi rəhbərimiz azərbaycançılıq məfkurəsinin, həmrəyliyin banisi idi. Həmrəylik Gününün qeyd olunması ilə bağlı tarixi qərar da o vaxt Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri kimi Heydər Əliyevin təşəbbüsü ilə 1991-ci il dekabrın 16-da verilib. 2001-ci il noyabrın 9-10-da Bakıda Dünya azərbaycanlılarının I qurultayı keçirildi. Qurultay müxtəlif ölkələrdə azərbaycanlı icmalarının mütəşəkkilliyinin və fəallığının artmasına ciddi təsir göstərdi. Azərbaycan Prezidentinin 2002-ci il 5 iyul tarixli fərmanı ilə Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin yaradılması, həmin il dekabrın 27-də "Xaricdə yaşayan Azərbaycanlılarla bağlı dövlət siyasəti haqqında" Qanunun qəbul edilməsi dünya azərbaycanlılarının təşkilatlanması prosesini daha da gücləndirdi. Hazırda Prezident İlham Əliyev də Ulu Öndərin bu estafetini uğurla davam etdirir. 2006-cı ildə Bakıda keçirilən Dünya azərbaycanlılarının 2-ci qurultayı da xaricdə yaşayan azərbaycanlıların diaspor hərəkatının inkişafı istiqamətində yeni bir mərhələ oldu".

Sonra tarix üzrə fəlsəfə doktoru Vahid İsmayılov, Azərbaycan Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri İctimai Birliyinin sədr müavini Aris Məmmədov və başqaları çıxış edərək Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə ürək sözlərini bölüşdülər.

Sənədli film nümayiş etdirildikdən sonra Həzi Aslanov adına Mərkəzi Zabitlər Evinin yaradıcı kollektivi konsert proqramı ilə çıxış etdi.

**Leytenant**
**Orxan HÜSEYNLİ,**
**"Azərbaycan Ordusu"**

# Yeni il şənliyi

*Həmrəylik Günü xalqımızın birlik və həmrəyliyinin təcəssümüdür. Sürətlə inkişaf edən müstəqil Azərbaycan bütün dünyada yaşayan soydaşlarımız üçün müqəddəs Vətəndir. Həmvətənlərimiz azərbaycançılıq amalı ətrafında milli birlik və həmrəylik nümayiş etdirir, bütün qüvvə və bacarıqlarını ümummilli məqsədlər naminə səfərbər edirlər.*



Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı ölkəmizin hər bir yerində olduğu kimi hərbi hissələrimizdə də yüksək ovqatla keçirilir. Belə tədbirlərdən biri də dekabrın 28-də Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin klubunda Həzi Aslanov adına Mərkəzi Zabitlər Evinin təşkilatçılığı ilə keçirildi.

Tədbirdə Müdafiə Nazirliyinin hərbi qulluqçuları, mülki işçilər və onların ailə üzvləri iştirak edirdilər. Həmçinin tədbirə Şaxta baba və Qar qız dəvət olunmuşdu. Şənlikdə "Nağıllar aləminə səyahət" adlı musiqili tamaşa nümayiş etdirildi, rəngbərəng işıqlarla bəzədilmiş yolka ətrafında uşaqlar üçün əyləncəli oyunlar təşkil olundu.

Sonda balacalara hədiyyələr verildi.

**O.ƏLİNİYAZOĞLU,**
**"Azərbaycan Ordusu",**
**foto**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

# Gənc nəsil Həmrəylik Günü barədə nə bilir?

*Ötən əsrin 90-cı illərinə qədər xalqımız müstəqillik əldə etmək üçün mübarizə apardı və öz dövlətçiliyinə sahib oldu. Amalımızda, arzularımızda birliyi, bərabərliyi ifadə edən həmrəylik anlayışı yeni məzmun aldı.*

Hər bir millətin tərəqqisi onun gələcəyinin qurulmağından asılıdır. Gələcəyi isə gənclər qurur. Gənclik kökünə bağlı, milli-mənəvi dəyərlərə sadiq, əyilməz və tükənməz gücdür...

Bu günlərdə Nəsimi rayonunda yerləşən Azərbaycanın Milli Qəhrəmanı Yusif Mirzəyev adına 44 saylı tam orta məktəbdə olarkən 31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəylik Günü ilə əlaqədar şagirdlər arasında rəsm və inşa müsabiqəsinin keçirilməsindən xəbər tutdum. Bununla əlaqədar tədris işləri üzrə direktor müavini Tamilla Xankişiyeva dedi ki, əsas vəzifələrimizdən biri də ailədə formalaşan ilkin vətənpərvərlik hissini məktəbdə daha da möhkəmləndirmək, inkişaf edirməkdir. "Məktəbimizdə tarixi əlamətdar günlər geniş şəkildə qeyd edilir. 31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəylik Günü də həmişə böyük sevgiylə qarşılanır. Ümummilli liderimiz Heydər Əliyev azərbaycanlıların həmrəyliyini müstəqil dövlət quruculuğu prosesi ilə əlaqələndirərək milli birliyimizin formalaşmasına dəyərli töhfə verdi. İndi hər bir azərbaycanlı yaşından asılı olmayaraq həmrəyliyin nədən ibarət olduğunu yaxşı bilir".



Şagirdlərlə Həmrəylik Günü ilə bağlı səmimi bir söhbətimiz alındı. Hər kəs öz bildiyini danışdı.

**Ayla İmanova:** - 31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəylik Günü dedikdə azərbaycanlıların vahid millət kimi birliyi, bərabərliyi nəzərdə tutulur. Düşünürəm ki, Azərbaycan xalqının və dövlətinin gələcəyi ilə bağlı məsuliyyəti harada yaşamasından asılı olmayaraq bütün azərbaycanlılar daşıyırlar.

**Əzəmətli Həbibli:** - Ulu öndər Heydər Əliyevin uzaqgörən siyasəti sayəsində 2001-ci il noyabrın 10-da Bakı şəhərində Dünya azərbaycanlılarının birinci qurultayı keçirildi. 36 ölkənin nümayəndələrinin iştirak etdiyi qurultayda Ümummilli Liderin dediyi "Biz azərbaycançılığın dövlət rəmzlərini yaşadan müstəqil dövlətimiz ətrafında daha sıx birləşməli, onun tərəqqisi üçün əlimizdən gələni əsirgəməməliyik" kəlamı ölkəmizdə gənclərin həyat amalına çevrilib.

**Tofiq Sadıqzadə:** - Dahi rəhbərimiz göstərdi ki, qüdrətli Azərbaycana aparan yol bütün azərbaycanlıların milli birliyindən keçir. Azərbaycanlıların ilk qurultayı dünyanın müxtəlif qütblərində yaşayan soydaşlarımızın bir araya gətirilməsi istiqamətində atılmış qəti bir addım, xalqa və dövlətçiliyə böyük xidmət idi.

**Məhəmməd Qarayev:** - İndiyə qədər dünya azərbaycanlılarının dörd qurultayı - 9-10 noyabr 2001-ci il, 16 mart 2006-cı il, 5-6 iyul 2011-ci il və 3-4 iyun 2016-cı ildə Bakı şəhərində keçirilib. Hər qurultay milli birliyi daha da möhkəmləndirir.

**Fatimə Şirinova:** - Ümummilli liderimiz Heydər Əliyev minillik tariximizdə dünya azərbaycanlılarını ilk dəfə bir araya gətirən böyük dövlət xadimidir. Sürətlə inkişaf edən Azərbaycan indi bütün dünya azərbaycanlıları üçün güc mənbəyidir.

**Toğrul Sadıqov:** - Dövlətimizin diaspor siyasəti, xaricdəki həmvətənlərimizin daha mütəşəkkil formada təşkilatlanması prosesi özünün yeni mərhələsinə qədəm qoyub. İndi soydaşlarımız yaşadıqları ölkələrin sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında daha fəal rol oynayır, Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında, zəngin mədəni irsimizin təbliğində, düşmənlərin ideoloji təxribatlarının qarşısının alınmasında da qətiyyət nümayiş etdirirlər.

**Süleyman Təmrazov:** - Ulu Öndərimiz xaricə səfərləri zamanı proqramının zənginliyinə baxmayaraq, həmin ölkələrdə yaşayan həmvətənlərimizlə görüşlərə də vaxt ayırıb, onlara tövsiyələrini verib... Hazırda Prezident İlham Əliyev Ulu Öndərin siyasi kursunu bu istiqamətdə də uğurla davam etdirir.

**Aydan İbrahimli:** - Aprel döyüşlərində xalqımız həmrəylik nümayiş etdirdi. O günlərdə televiziyada yayımlanan proqramlardan birində qonaq olan məsul şəxslərdən biri bildirdi ki, ölkə xaricində yaşayan azərbaycanlılar aidiyyəti qurumlara çoxsaylı müraciətlər edərək ərazilərimizin işğaldan azad edilməsində ordumuzla çiyin-çiyinə dayanmaq istədiklərini bildiriblər.

**Əli Qarayev:** - Biz həmrəyliyi aprel zəfərini qazanaraq qələbə sevincini yaşadan şəhidlərimizi torpağa tapşıranda da yaşadıq. Xalqımız son örtüyü üçrəngli müqəddəs bayrağımız olan şəhidlərimizin nəşini son mənzilə qürurla, fəxrlə daşıdı. Onlar bir ailənin övladlığından çıxaraq bütün azərbaycanlıların övladına, əzizinə çevrildilər.

*Məktəblilərlə söhbətdən sonra ümummilli liderimiz Heydər Əliyevin gənc nəslə tövsiyələri ilə bağlı bir fikrini də xatırlayıram. "Mənim üçün ən əziz nemət Azərbaycanın uşaqlarıdır, gəncləridir. Çünki Azərbaycan Prezidenti kimi mən də bu gün Azərbaycanın böyük gələcəyi haqqında düşünürəm. Azərbaycanın gələcəyi isə Azərbaycanın gənclərindən və uşaqlarından asılıdır".*

*Sevindirici haldır ki, bu gün gənclərimiz Ulu Öndərin istədiyi kimi təlim-tərbiyə alaraq inkişaf edirlər.*

**Leytenant**
**Günay TAĞIYEVA,**
**"Azərbaycan Ordusu",**
**foto**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

# Hərbi qulluqçunun ailəsində üçəm körpələri dünyaya gəlib

*Dekabrın 24-də Qusar rayon sakini, Azərbaycan Ordusunun hərbi qulluqçusu gizir Əmrulla Əmiraliyevin ailəsində eyni gündə 3 övladı (üçəm körpələr) dünyaya gəlib.*



Körpələr və hərbçinin həyat yoldaşı Şəhla Əmiraliyevanın səhhəti normaldır.

General-polkovnik Zakir Həsənovun tapşırığı ilə Müdafiə Nazirliyinin bir qrup əməkdaşı Qusarda hərbi qulluqçu Ə.Əmiraliyevin ailəsinə baş çəkib.

Görüşdə iştirak edən Müdafiə Nazirliyinin əməkdaşı, Əməkdar İncəsənət Xadimi, Prezidentin fərdi təqaüdçüsü Abdulla Qurbani körpələrin valideynlərini hərbçilər adından təbrik edib, onlara sağlam həyat arzulayıb. Bildirib ki, Əmrulla Əmiraliyev xidmətdə seçilən, nümunəvi hərbçilərdəndir. Döyüş və mənəvi-psixoloji hazırlıq əlaçısıdır. Ailə vəziyyəti ilə əlaqədar xidmətini doğma rayonuna yaxın hərbi hissələrin birində davam etdirmək təklif olunsa da, o, cəbhə bölgəsində xidmət etmək arzusunda olduğunu bildirib.

Abdulla Qurbani qeyd edib ki, Müdafiə naziri general-polkovnik Zakir Həsənov tərəfindən hərbi qulluqçunun xidmət etdiyi bölgədə onun ailə-məişət şəraitinin yaxşılaşdırılması ilə bağlı xüsusi tapşırıq verilib.



Ailəyə ev üçün zəruri məişət əşyaları və ləvazimatlar hədiyyə edilib.

Görüş zamanı üçəm körpələrin babası Güləli və nənəsi Zalikə Əmiraliyevlər göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə, eləcə də Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlıqlarını bildiriblər.

Gizir Ə.Əmiraliyev diqqət və qayğıdan ruhlanaraq bundan sonra da Vətənə, dövlətə, xalqa sədaqətlə xidmət edəcəyinə, göstərilən etimadı nümunəvi xidməti ilə doğruldacağına söz verib.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti,**
**fotolar çavuş Namiq PƏNAHOVUNDUR**

# Hərbi liseydə ilin yekunlarına dair tədbir keçirilib

*Cəmşid Naxçıvanski adına Hərbi Liseydə "2017-ci ilin yekunları və Müdafiə nazirinin geniş kollegiya iclasında qarşıya qoyduğu tapşırıqlar" mövzusunda müşavirə keçirilib.*

Hərbi məktəbin cari ildə fəaliyyəti haqqında məruzə ilə çıxış edən liseyin rəisi Müdafiə naziri general-polkovnik Zakir Həsənovun 2017-ci ilin yekunlarına həsr olunmuş geniş kollegiya iclasında 2018-ci tədris ili üçün qoyduğu tapşırıq və tövsiyələri şəxsi heyətin diqqətinə çatdırıb.

Sonda Müdafiə nazirinin Dünya Azərbaycanlılarının



Həmrəylik Günü və Yeni il münasibətilə təbriki və hərbi liseyin şəxsi heyətinin mükafatlandırılması haqqında əmri çatdırılaraq bir qrup hərbi qulluqçu və mülki işçilərə xidmətdə, tədrisdə qazandıqları nailiyyətlərə görə mükafatlar təqdim olunub.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

*29 dekabr 2017-ci il.*

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 134 dəfə pozub.

Ermənistan Respublikası İcevan rayonunun Paravakar kəndində yerləşən mövqelərdən Ağstafa rayonunun Köhnəqışlaq kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Çiləbürt, Ağdam rayonunun Şıxlar, Baş Qərvənd, Cəvahirli, Qaraqaşlı, Yusifcanlı, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Aşağı Veysəlli, Qobu Dilağarda, Qərvənd, Qaraxanbəyli, Qorqan, Kürdlər, Horadiz, Cəbrayıl rayonunun Nüzgar və Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

# "Bütün yazılı mənbələr sübut edir ki, ermənilərə qarşı soyqırımı olmayıb"

*XXI əsrdə ermənilərin azərbaycanlılara qarşı törətdikləri dəhşətdir. Yeni kitabımda ermənilərin dəhşətli əməllərini ictimaiyyətə çatdırmaq və onların "erməni soyqırımı" adlandırdıqları hadisələrdə, əslində, daha çox türklərin qırğına məruz qaldıqlarını göstərməkdir.*

*Bu fikri fransız tarixçi İv Benar "Türk-erməni fikir ayrılığı" adlı yeni kitabı ilə bağlı AZƏRTAC-a məxsusi müsahibəsində söyləyib.*

Tarixçi bildirib ki, bu kitab onun beşillik elmi tədqiqatlarının bəhrəsidir, yalnız yazılı mənbələrə və canlı şahidlərin fikirlərinə əsaslanır. O, kitabı yazarkən Fransanın, eləcə də Türkiyənin kitabxana və arxivlərində tədqiqat apardığını, ermənilərin iddia etdikləri "soyqırımı" ilə bağlı həmin hadisələri yaşamış ailələrin üzvləri ilə Türkiyədə görüşdüyünü deyib. "Təəssüf ki, bu insanların əksəriyyəti dünyasını dəyişib. Amma az da olsa belə insanlarla görüşüb onları dinləmişəm. Həmin insanlar yaşadıqları dəhşətləri danışanda göz yaşlarına qərq olurlar. Onların söylədikləri insanın qəlbini ağrıdır", - deyə o qeyd edib.

İv Benar tədqiqatının qərəzli olmaması üçün hər iki tərəfi dinləməyə hazır olmasına baxmayaraq, ermənilərin onunla görüşdən imtina etdiklərini bildirib. Erməni yazılı mənbələrinə və kitablarına da müraciət etdiyini deyən alim oxuduqlarından, şahidlərin söylədiklərindən dəhşətə gəldiyini, onda getdikcə "erməni soyqırımı" deyə bir hadisənin olmadığına, bunun ermənilərin mifi olduğuna əminlik yarandığını vurğulayıb.

"Müraciət etdiyim yazılı mənbələrdə qeyd olunub ki, ermənilər türkləri və azərbaycanlıları evlərinə, məscidlərə və anbarlara dolduraraq diri-diri yandırıblar. 1914-1918-ci illərdə cəmiyyətin yararlı kişilərinin müharibədə olduğu bir vaxtda Daşnaksütyun partiyasının üzvləri mülki şəxsləri - qadınları, uşaqları və qocaları kütləvi halda qətlə yetirib və kəndləri yandırıblar. Ermənilərin iddia etdikləri "soyqırımı" zamanı əslində daha çox türklərin qətlə yetirildiyini yazılı mənbələr təsdiqləyir. Ermənilərdən də ölənlər olub, ancaq iddia edildiyi sayda yox. Ermənilər əvvəllər 1 milyon 500 min erməninin qətlə yetirildiyini iddia edirdilər. Sonradan bu rəqəmi 2 milyona qaldırdılar. Halbuki cəmi 400 min erməni ölüb ki, onların əksəriyyəti öz əcəli ilə dünyasını dəyişib, digərləri türklər və fransızlar kimi həmin dövrdə bütün ölkələrin məruz qaldığı aclıq və soyuqdan həlak olublar. Bütün bunlar yazılı mənbələrdə də öz təsdiqini tapır. Ermənilərə qarşı heç bir planlaşdırılmış kütləvi qırğın olmayıb", - deyə İ.Benar diqqətə çatdırıb.

Qeyd edək ki, tarixçi İv Benar 2009-cu ildə "Erməni soyqırımı, yoxsa bizi aldadıblar?" adlı birinci kitabının nəşri zamanı erməni lobbisinin təzyiqlərinə və təhqirlərinə məruz qalıb. O, kitabın çapı üçün 60-a qədər müxtəlif nəşriyyata müraciət etsə də, onlardan çoxu cavab verməyib və ya imtina edib. Buna baxmayaraq, alim sonuncu kitabını çap etdirməyə nail olub.

# Azərbaycan Respublikası Silahlı Qüvvələrinin şəxsi heyəti ilə ictimai-siyasi hazırlıq sistemində keçirilən dərs

## (İctimai-siyasi hazırlıq qrupunun rəhbərinə dərsə hazırlaşmaq üçün kömək)

**Mövzu:** Azərbaycan Respublikası rəhbərliyinin ölkənin müdafiə qüdrətinin yüksəldilməsi istiqamətindəki fəaliyyəti. Hərbi hissə və birləşmələrin əsas vəzifələri.

**SUALLAR:**

**1. Azərbaycan Respublikası rəhbərliyinin ölkənin müdafiə qüdrətinin yüksəldilməsi istiqamətindəki fəaliyyəti.**

**2. Hərbi hissə və birləşmələrin əsas vəzifələri.**

### *Azərbaycan Respublikası rəhbərliyinin ölkənin müdafiə qüdrətinin yüksəldilməsi istiqamətindəki fəaliyyəti*

Artıq 27-ci ildir ki, müstəqil Azərbaycan Respublikası dünya dövlətləri arasında öz layiqli yerini tutur və inkişaf etmiş dövlətlər sırasına qoşulmaq yolunda böyük inam və qətiyyətlə irəliləyir. Müasir müstəqil dövlətimizin memarı və qurucusu olan ulu öndər Heydər Əliyev həm də qüdrətli Azərbaycan Ordusunun yaradıcısıdır. Qarşısına qoyulan hər hansı tapşırığı yüksək səviyyədə yerinə yetirmək iqtidarına malik Azərbaycan Silahlı Qüvvələri bu gün NATO standartlarına cavab verən səviyyədə formalaşıb. Bir mərkəzdən idarə edilən, vahid komandanlığa tabe olan, müasir hərb elminin tələblərinə cavab verən Azərbaycan Ordusu ümummilli lider Heydər Əliyevin başladığı və Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin uğurla davam etdirdiyi müdrik siyasət nəticəsində gündən-günə daha da möhkəmlənir, döyüş qabiliyyətini artırır. Azərbaycan beynəlxalq aləmdə güclü iqtisadiyyata malik bir ölkə kimi tanınmaqla yanaşı, həm də NATO standartlarına uyğunlaşmış modern bir ordusunun olması ilə də diqqəti cəlb edir. Ulu Öndərin ideyalarını layiqincə yerinə yetirərək ordu quruculuğu sahəsində öz səylərini daha da artıran Ali Baş Komandan Azərbaycan Silahlı Qüvvələrinin müasir hərbi texnika ilə təchiz edilməsinə, möhkəm nizam-intizam, yüksək döyüş ruhu ilə seçilən, düşmənə sarsıdıcı zərbə vurmağa qadir olan bir ordu yaradılmasına nail olmuşdur. Ordu quruculuğunda mühüm rol oynayan kadr hazırlığı da ölkə rəhbərliyinin daim diqqət mərkəzindədir. Bu gün Azərbaycanda Silahlı Qüvvələrin Hərbi Akademiyası, Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi, Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzi, Cəmşid Naxçıvanski adına Hərbi Lisey və Naxçıvan Muxtar Respublikasında Heydər Əliyev adına Hərbi Lisey fəaliyyət göstərir ki, bunun da ölkəmizin müdafiə qüdrətinin artırılmasında xüsusi rolu vardır. Yüksək kadr potensialı və geniş maddi-texniki bazası olan yerli hərbi məktəblərlə yanaşı, hərbçilərimiz bir sıra vacib hərbi ixtisaslar üzrə təhsil almaq üçün Türkiyə, Rusiya, Ukrayna, Pakistan, Çin və digər ölkələrə göndərilir. Eyni zamanda Azərbaycan hərbçiləri NATO-nun "Sülh Naminə Tərəfdaşlıq" proqramı çərçivəsində təşkil olunan müxtəlif ixtisasartırma və təlim kurslarında da yaxından iştirak edirlər. Azərbaycanın NATO ilə əlaqələri artıq "Fərdi Tərəfdaşlığın Fəaliyyət Planı" çərçivəsində inkişaf edir. Bu isə ölkəmizdə ordu quruculuğu prosesində növbəti nailiyyətlərin qazanılması üçün möhkəm təməl deməkdir.

Sabitlik, dinamik iqtisadi inkişafla yanaşı, güclü ordu quruculuğu müasir Azərbaycanı xarakterizə edən əsas amillərdən biridir. Son illər ölkəmizin iqtisadi qüdrətinin artması sosial məsələlərin həllinə və milli ordumuzun möhkəmlənməsinə geniş imkan yaradıb. Dövlət büdcəsindən hərbi sahəyə ayrılan xərclərin dəfələrlə artırılması ordumuzun bütün istiqamətlər üzrə potensialının yüksək səviyyəyə çatdırılmasına yol açıb. Azərbaycan Silahlı Qüvvələri hazırda dövlət rəhbərliyinin böyük qayğısı sayəsində özünün yüksək inkişaf mərhələsini yaşayır. Müasir dövrdə ölkəmizdə çox mühüm sahələr olan hərbi təhsil və hərbi səhiyyə də davamlı şəkildə inkişaf etməkdədir.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev Azərbaycan dövlətinin bu istiqamətdə yürütdüyü siyasətin məğzini, məqsədini çox aydın və dürüst şəkildə belə ifadə edib: "Biz bütün sahələrdə orduda gedən proseslərin inkişafına çalışırıq. Son illər ərzində maddi-texniki bazanın möhkəmdirilməsində böyük işlər görülmüşdür, çoxlu texniki avadanlıq, müasir silahlar alınmışdır və beləliklə, Azərbaycan Ordusu xeyli dərəcədə güclənmişdir. Biz bu prosesi davam etdirəcəyik. Azərbaycan müharibə şəraitində yaşayır və belə olan halda ilk növbədə ordu quruculuğuna böyük diqqət göstərilməlidir".

Təbii ki, Azərbaycan hərbi potensialını genişləndirmək üçün özünün sürətlə artan iqtisadi imkanlarından hərtərəfli şəkildə bəhrələnməlidir və bu iş lazımi səviyyədə həyata keçirilməkdədir. Güclü iqtisadi inkişaf, gəlirlərin durmadan çoxalması hərbi xərclərin ilbəil artmasına imkan verir. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev bildirmişdir ki, hərbi xərclərin artırılması və büdcə xərclərində birinci yeri tutması bizim dövlət siyasətimizin təzahürüdür. Dövlət başçısının sözlərinə görə, bu, bizim prioritetimizdir və bundan sonra da hərbi xərcləri artıracağıq. Son 10 il ərzində hərbi xərclərimiz 20 dəfədən çox artmışdır və bizdə orduya, Silahlı Qüvvələrə ayrılmış xərclər Ermənistanın bütün dövlət büdcəsindən təxminən 2 dəfə çoxdur. Ən müasir silah-sursat alınır və bu silahların, texnikaların bir hissəsi ictimaiyyətə nümayiş etdirilmişdir. Bugünkü dünyada daha çox yüksək dəqiqliyə və böyük dağıdıcı qüvvəyə malik olan silahlar üstünlük təşkil edir. Bu silahları biz alırıq və alacağıq. Eyni zamanda, Azərbaycanda son illərdə yerli istehsal da təşkil edilibdir. 2005-ci ildən bu günə qədər Müdafiə Sənayesi Nazirliyinin xətti ilə 900 adda hərbi təyinatlı silah-sursat istehsal olunubdur və bu gün bu proses davam etdirilir. Gələcəkdə biz sursatlarla, texnika ilə özümüzü tam şəkildə təmin etməliyik. Eyni zamanda, ən müasir müxtəlif texnikalar alınır və müasirləşmə prosesi daim aparılır. Görülən bütün bu işlərlə yanaşı, Azərbaycanda hərbi sənaye də çox sürətlə inkişaf edir. Bu sahəyə də böyük vəsait ayrılır, diqqət göstərilir. Son illər ərzində çoxsaylı zavodlar yaradılıbdır. Azərbaycanda ən müasir texnika istehsal olunur. Gələcəkdə bizim bu sahədə planlarımız çox genişdir və böyükdür. İstəyirik ki, bizə lazım olan hərbi sursat və texnika maksimum dərəcədə Azərbaycanda istehsal olunsun. Beləliklə, biz idxaldan da asılılığımızı azaldacağıq. Baxmayaraq ki, silah-sursatın alınması ilə əlaqədar qarşımızda heç bir problem yoxdur, bu proses davam edir və davam edəcəkdir.

Bu gün Azərbaycan bölgədə o nadir ölkələrdəndir ki, öz hesabına və gündən-günə daha da yaxşı yaşayır. Bizim maliyyə imkanlarımız genişlənir. Biz heç kimin yardımından, kreditindən asılı deyilik. Belə olan halda gələcəkdə, əlbəttə ki, Ermənistan ilə Azərbaycan arasında istər iqtisadi sahədə, istər ordu quruculuğunda, istərsə də demoqrafik məsələlərdə fərq daha da böyüyəcəkdir. Azərbaycanda əhalinin sayı ildən-ilə artır. Ermənistanda isə demoqrafik vəziyyət ildən-ilə pisləşir. Həm təbii azalma müşahidə olunur, eyni zamanda, Ermənistandan köçüb gedənlərin sayı artır. Yəni, biz bilirik ki, hətta təmas xəttində, o təmas xəttini qorumaq üçün Ermənistan ordusunda canlı qüvvə çatışmır. Bu yaxınlarda o ölkədə elan edilmiş bəzi tədbirlər onu göstərir ki, onlar hansı çətin vəziyyətdədirlər. Orada canlı qüvvə Azərbaycanda olan insani potensialla müqayisə oluna bilməz. Bu, vacib məsələdir və üstünlük bizim tərəfimizdədir. Bütün başqa sahələrdə də üstünlük bizim tərəfimizdədir. Ona görə də bu regional amili heç kim inkar edə bilməz. Biz bundan sonra da milli maraqlarımızı bütün vasitələrlə müdafiə edəcəyik və bununla bərabər bölgədə genişmiqyaslı əməkdaşlığın yaranması üçün səylərimizi göstərəcəyik. Bu genişmiqyaslı əməkdaşlığın əsas amili Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllidir. Hələ ki, biz Ermənistan tərəfindən konstruktivlik görmürük. Onların vaxtuzatma və beynəlxalq vasitəçiləri aldatmaq cəhdləri davam edir. Çox təəssüf hissi ilə deyə bilərik ki, bəzi beynəlxalq qurumlar onların qeyri-səmimi davranışına, bir növ, göz yummaq istəyirlər. Açıq-aydın görünən danışıqları pozmaq cəhdlərinə, Ermənistan tərəfindən göstərilən bu cəhdlərə, elə bil ki, bəraət qazandırılır. Əlbəttə ki, bu, bizi çox narahat edir. Çünki beynəlxalq aləm öz qərarlarına, heç olmasa hörmət etməlidir. Bu olanlara rəğmən Azərbaycanın bütün istiqamətlərdə atdığı addımlar çox uğurludur.

### *Hərbi hissə və birləşmələrin əsas vəzifələri*

2018-ci ildə Azərbaycan Silahlı Qüvvələrin yaradılmasının 100 illiyini qeyd edəcəkdir. Ordumuzda yüksək hərbi intizamın saxlanılması üçün müvafiq tədbirlər görülür, islahatlar aparılır. Silahlı Qüvvələrimiz yeni inkişaf mərhələsinə qədəm qoyub. Hərbi hissələrin müasir standartlara uyğun qurulması, şəxsi heyətin həyat və məişət şəraitinin yaxşılaşdırılması, ordumuzun müasir silahlarla təminatı istiqamətində görülən işlər sayəsində Azərbaycan Silahlı Qüvvələri dünyanın ən güclü orduları ilə bir cərgədə öz layiqli yerini tutub. Ötən ilin aprel döyüşləri Azərbaycan Ordusunun gücünü və işğal altındakı torpaqlarımızı qısa müddətdə azad etməyə qadir olduğunu bir daha göstərdi. Bu gün bizim ordumuz istənilən vəzifəni icra edə bilər və Silahlı Qüvvələr miqyasında keçirilən komanda-qərargah hərb oyunları və taktiki təlimlər bunun əyani sübutudur. Müasir döyüş taktikası tətbiq edilir, dünyada ən qabaqcıl təcrübə öyrənilir və Azərbaycanda istifadə olunur. Bu gün Azərbaycan əsgəri havada, suda və quruda Vətənin maraqlarını şərəflə qoruyur.

Müharibə vəziyyətinin davam etdiyini nəzərə alan Azərbaycan dövləti tamamilə haqlı olaraq öz ordusunun gücünü, hərbi kadrların peşəkarlıq səviyyəsini durmadan artırır, hərbi qüdrətini yüksəldir. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev öz çıxışlarında dəfələrlə vurğulayıb ki, ordu quruculuğu, müdafiə potensialının möhkəmlənməsi və güclü ordunun yaranması dövlət üçün, hökumət üçün, hər bir vətəndaş üçün bir nömrəli vəzifədir. Biz bu istiqamətdə öz səylərimizi davam etdirəcəyik. Hər an hazır olmalıyıq ki, doğma torpaqlarımızı işğalçı qüvvələrdən hərbi yolla azad edək. Ordumuzun gücünü artıran, hərbçilərimizin döyüş əhval-ruhiyyəsini yüksəldən əsas amillərdən biri də ölkə Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin hərbi hissələrə, xüsusən cəbhə xəttinə ardıcıl səfərlər etməsidir. Ön xətdə xidmət edən əsgər və zabitlərimizlə hər görüşündə onlara sonsuz mübarizə əzmi aşılayan Ali Baş Komandan bununla da orduya diqqət və qayğısını əyani şəkildə nümayiş etdirir.

Dövlətimizin regionda müstəqil siyasət apara bilməsi üçün yüksək döyüş hazırlıqlı ordusu olmalıdır. Bunun üçün isə Azərbaycan Ordusunun qarşısında 2018-ci tədris ilində aşağıdakı əsas vəzifələr qoyulmuşdur:

- 2017-ci tədris ilində döyüş və mənəvi-psixoloji hazırlıqda əldə olunmuş nəticələrlə kifayətlənməmək, döyüş hazırlığını daha da təkmilləşdirmək, şəxsi heyətin döyüş ruhunu yüksək səviyyədə saxlamaq;
- birlik, birləşmə və hərbi hissələrdə hərbi intizamı daha da möhkəmləndirmək;
- şəxsi heyətin mənəvi-psixoloji hazırlığını yüksəltmək, onlarda Hərbi Anda, Vətənə, xalqa sədaqət hissləri aşılamaq və gücləndirmək;
- hərbi kollektivləri dostluq və əsgəri yoldaşlıq ruhunda tərbiyə etmək.

Bu gün Azərbaycan Ordusu qarşısında torpaqlarımızı azad etmək üçün hər an hazır olmaq vəzifəsi durur. Hər bir hərbi qulluqçu dərk etməlidir ki, o öz vəzifə borcunu vicdanla yerinə yetirməklə, döyüş və ictimai-siyasi hazırlıq dərslərində, təlimlərdə hərbi biliklərə dərindən yiyələnməklə, mənəvi-psixoloji və fiziki hazırlığını artırmaqla, intizamlı olmaqla özünü torpaqlarımızın azadlığı uğrunda gələcək döyüşlərə hazırlayır. Bu döyüşlərdə Azərbaycan əsgəri tarixi qələbəni əldə etməklə nəyə qadir olduğunu bir daha sübut edəcəkdir.

**Qeyd:** *İctimai-siyasi hazırlıq qrupunun rəhbəri mövzunu şərh edərkən hərbi hissənin, öz bölməsinin 2017-ci tədris ilində döyüş və ictimai-siyasi hazırlığında qazandığı nəticələri bir daha dinləyicilərin nəzərinə çatdırmalı, 2018-ci tədris ilində hərbi hissənin, bölmənin qarşısına qoyulmuş tapşırıqların çatdırılmasına və izah edilməsinə xüsusi diqqət yetirməlidir.*

**Müdafiə Nazirliyi**
**Mənəvi-Psixoloji**
**Hazırlıq və İctimaiyyətlə**
**Əlaqələr İdarəsi**

# Minnətdarlıq

Silahlı Qüvvələrin Baş Klinik Hospitalı son illər əsaslı təmir edilib, təchizatı gücləndirilib. Ordu sıralarından ehtiyata buraxılsam da, bu barədə geniş məlumata sahib idim. Bu yaxınlarda ürəyimdə yaranan narahatlıqla bağlı bu tibb müəssisəsinə müraciət etməyim əbəs deyildi. Çünki Silahlı Qüvvələrin Baş Klinik Hospitalının ürək-damar şöbəsi və savadlı həkimləri haqqında məlumatım vardı.

Tibbi personal məni müayinə edərək ürəyin işemik xəstəliyi, gərginlik stenokardiyası diaqnozunu müəyyən etdilər. Dərhal əməliyyat olunmağımı məsləhət gördülər. Dekabrın 12-də dünyaşöhrətli ürək cərrahı Anar Əmrah və onun tibbi personalı üzərimdə açıq ürək əməliyyatı həyata keçirdilər. Hazırda ev şəraitində müalicəmi davam etdirirəm və özümü çox yaxşı hiss edirəm. Sağlamlığımın bərpasında əməyi olan fədakar tibb işçilərini heç zaman unutmaram.

Silahlı Qüvvələrin Baş Klinik Hospitalının kollektivinə, başda Anar Əmrah olmaqla, ürək-damar mərkəzinin tibbi personalına qəzetiniz vasitəsilə təşəkkür edib, dərin minnətdarlığımı bildirirəm.

**Elbrus DADAŞOV,**
**ehtiyatda olan**
**polkovnik-leytenant**

# Həmrəylik Gününə həsr olunmuş şahmat turniri



C.Naxçıvanski adına Hərbi Liseydə 31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəylik Gününə həsr olunmuş hərbi və mülki qulluqçular arasında şahmat birinciliyi başlanıb. Bu münasibətlə keçirilən mərasimdə əvvəlcə ümummilli liderimiz Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda şəhid olan soydaşlarımızın xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Tədbir iştirakçıları Azərbaycan Respublikasının Dövlət himnini ifa etdilər.

Hərbi liseyin idman rəisi Fərhad Əliyev çıxış edərək bildirdi ki, 31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəylik Günü xalqımız üçün çox əlamətdardır. "Ümummilli lider Heydər Əliyevin Azərbaycan xalqı qarşısında ən böyük xidmətlərindən biri də yer kürəsində yaşayan yurddaşlarımız arasında həmrəyliyin, birliyin yaradılmasına nail olmasıdır. Ulu Öndərin bu sahədə başladığı böyük işlər hazırda Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyev tərəfindən inamla davam etdirilir. İndi bu bayram dünyanın 70-dən çox ölkəsində yaşayan 50 milyondan artıq azərbaycanlını birləşdirir. Bu əlamətdar gün ərəfəsində biz də şahmat birinciliyinin keçirilməsini qərara aldıq. Ümid edirik ki, bu yarış bizi bir-birimizlə daha da həmrəy edəcək. İştirakçıların hər birinə uğurlar arzulayıram."

Şahmat turniri bir neçə gün davam edəcək və qaliblər komandanlıq tərəfindən mükafatlandırılacaq.

# Kursantların bilik yarışı



Müdafiə nazirinin müvafiq əmrinə əsasən, "Vətənə, xalqa, dövlətə xidmət ömrümüzün mənasıdır" devizi altında Cəmşid Naxçıvanski adına Hərbi Liseydə kursantların intellektual bilik yarışması keçirildi.

Tədbir açıq elan olunduqdan sonra ümummilli lider Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Müsabiqənin sualları əsasən ümummilli lider Heydər Əliyevin həyatını və siyasi fəaliyyətini, həmçinin 31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəylik Gününü əhatə edirdi.

Əvvəlcə Həmrəylik Günü ilə bağlı qısametrajlı film nümayiş etdirildi.

Üç komandanın - "Aysberq", "Kainat" və "Turan"ın iştirakı ilə yarış başlandı. Kursantlar təyin olunmuş vaxt çərçivəsində biliklərini nümayiş etdirdilər. Suallar həm səsgücləndirici ilə səsləndirilir, həm də elektron tabloda yazılırdı. Kursantları ruhlandıran alqışlar isə kəsilmək bilmirdi.

Nəhayət, nəticələr elan olundu, "Turan" komandası birinci, "Kainat" ikinci, "Aysberq" isə üçüncü yerlərə layiq görüldülər.

Qaliblər Hərbi liseyin rəhbərliyi tərəfindən mükafatlandırıldı.

**Vahid MƏHƏRRƏMOV,**
**C.Naxçıvanski adına**
**Hərbi Lisey**

*Hərbi ənənələr, yeniliklər*

# Gecəgörmə cihazı





1PN98 gecəgörmə cihazı ərazinin öyrənilməsi, müşahidə edilməsi və gecə vaxtlarında, işıqlandırma dərəcəsi zəif olan ərazilərdə kəşfiyyat aparılması üçün nəzərdə tutulub. Fərqləndirici xüsusiyyəti ondan ibarətdir ki, avtonom olaraq, kimyəvi elektrik enerjisi ilə qidalanmayan (akkumulyator, elementlər, batareya) generatorun cərəyanı və enerji yığması hesabına işləməsi mümkündür.

Binokldan (durbin) quru qoşun bölmələrində, döyüş kəşfiyyat tapşırıqlarının yerinə yetirilməsində, həmçinin gecə şəraitində ərazinin istiqamətini təyin etmək üçün istifadə olunur. Ondan 50 dərəcə isti temperaturda və 50 dərəcə soyuq hava şəraitində də istifadə edilir. Cihaz ekoloji cəhətdən təmizdir, insana və ətraf mühitə heç bir zərərli təsiri yoxdur. Bundan başqa cihaz avtomatik olaraq ekranın işıqlandırılmasını həyata keçirə bilir, binokl ona təsir edən işıq dalğalarından, mərmi partlayışından, güclü projektorların təsirindən sonra da işləməyə qadirdir. Fasiləsiz olaraq işləyə bilir. Onun səyyar vəziyyətindən döyüş vəziyyətinə gətirilməsi 30 saniyə ərzində həyata keçirilir. İşə hazırlıq vaxtı 5 saniyə ərzindədir. Çəkisi bir kiloqramdan artıq deyil. Döyüş vəziyyətində isə çəkisi 1,8 kiloqram, dayaq və çantası olmaqla yürüş vəziyyətində çəkisi 2,8 kiloqrama qədərdir. Cihazın habarit ölçüsü 305x168, 5x91 mm-dir. İstismar müddəri 10 ilə qədərdir.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

# İdman

## Millimiz Dubayda növbəti qələbəsini qazanıb

Dubayda təlim-məşq toplanışını davam etdirən futbol üzrə 17 yaşadək qızlardan ibarət Azərbaycan millisi Birləşmiş Ərəb Əmirliklərinin müvafiq yaş qrupundan ibarət yığma komandası ilə növbəti yoldaşlıq oyunu keçirib.

Millimizin 4:0 hesablı qələbəsi ilə başa çatan oyunda qolları Nigar Mirzəliyeva, Melis Ersoy, Alina Nəhmədova və Aslan Beyzanur vurublar.

Qeyd edək ki, yığmamız Birləşmiş Ərəb Əmirlikləri millisi ilə keçirdiyi əvvəlki yoldaşlıq oyunlarında 2:0 və 3:0 hesablı qələbə qazanıb.

## "Neftçi İdman Klubu"nun kikboksçuları beynəlxalq turnirdə iki medal qazanıblar



Kiyevdə kikboksinq üzrə "Wizard Open-2017" beynəlxalq turniri keçirilib. Yarışda 300-dən artıq idmançı qüvvəsini sınayıb.

"Neftçi İdman Klubu" Azərbaycan yığmasının heyətində iki yetirməsi ilə təmsil olunub və onların hər ikisi mükafata layiq yer tutub.

Turnirdə 71 kiloqram çəki dərəcəsində mübarizə aparan Sehran Baxşıyev loukik versiyasında turnirin qalibi adını qazanıb. İsgəndər Hacıyev (67 kq) isə full kontakt yarışlarının gümüş medalına sahib olub.

Klubun kikboksinq üzrə məşqçisi Elnur Alıyev isə turnirdə ədalət təmsilçisi qismində çıxış edib.

## Cüdo üzrə Azərbaycan çempionatına yekun vurulub



Bakı İdman Sarayında kişilər, qadınlar və usta cüdoçular arasında təşkil olunan Azərbaycan çempionatına yekun vurulub. Üç gün davam edən respublika çempionatında bütün qaliblər müəyyənləşib.

Yarışın sonuncu günündə kişilər arasında 100 kq və 100 kq-dan yuxarı çəki dərəcələrində ölkə çempionları məlum olub. Adil Kərimli və Şahin Qəhrəmanov bütün rəqiblərinə qalib gələrək qızıl medal qazanıblar.

Usta cüdoçuların mübarizəsində isə bütün yaş qrupları və çəki dərəcələrində qaliblər bilinib.

Komanda yarışlarında "Neftçi" birinci, "Atilla" ikinci, Uşaq Gənclər İdman Məktəbi isə üçüncü olub.

Qaliblərə mükafatı Azərbaycan Cüdo Federasiyasının vitse-prezidenti Sadıq Sadıqov təqdim edib.

Azərbaycan Cüdo Federasiyasının dəvəti ilə respublika çempionatının daha şəffaf keçirilməsində yaxından iştirak etmiş Avropa Cüdo İttifaqının Hakimlər Komitəsinin rəhbər üzvlərinə xatirə hədiyyələri təqdim olunub.

**AZƏRTAC-ın**
**materialları əsasında**

Kapitan Hüseynov Namiq Əliabbas oğluna 2004-cü ildə verilmiş zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Baş leytenant Hüseynov Orxan Məhəmməd oğluna 2014-cü ildə verilmiş zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**Baş redaktor**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
leytenant
Günay TAĞIYEVA

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 788
Nüsxə 4600